**Akademik Tarih ve Düşünce Dergisi**

**Published by** **Autumn 2022 / 9-3**
https://dergipark.org.tr/tr/pub/atdd https://doi.org/10.46868/atdd.245

# Professor A.A.Xələfovun Azərbaycanda Kitabxanaşünasliğin İnkişafinda Rolu (Professor A.A.Xələfovun 90 illik Yubileyinə)

**Parviz Kazimi*** **Alemdar Bayramov****
**ORCID: 0000-0001-5577-4773** **ORCID: 0000-0002-6599-5788**

**Öz**

"Azərbaycanda kitabxanaşünaslıq elminin banisi" Abuzər Alı oğlu Xələfov 1931-ci il dekabrın 25-də Qərbi Azərbaycanın Göyçə rayonu ərazisində yerləşən Cil kəndində anadan olmuşdur. 1938-1945-ci illərdə yeddiillik ümumtəhsil məktəbində oxumuş, 1945-1946-cı illərdə Əli Bayramov adına kolxozda çalışmışdır. 1950-1955-ci illərdə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsinin Kitabxanaçılıq şöbəsində təhsil alıb. Bu illər ərzində Kitabxanaçılıq fakültəsində müəllim, baş müəllim, dosent vəzifələrində çalışıb. 1961-ci ildə "Azərbaycan kitabxanaçılıq tarixindən (1920-1932)" adlı mövzuda namizədlik, 1975-ci ildə isə "Azərbaycan kitabxanaçılıq tarixindən (1933-1958)" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Bu əsərlər əhəmiyyətli və aktual olmaqla Azərbaycanda kitabxanaçılığın inkişaf dinamikasını əks etdirirdi. O, kitabxanaşünaslığın məqsəd və vəzifələrini elmi cəhətdən əsaslandıraraq, onun aktual problemlərini diqqətlə öyrənmiş, onların həlli üçün özünəməxsus yollar təklif etmişdir. Abuzər Xələfovsovet alimləri arasında kitabxanaşünaslıq sahəsində tarix elmləri doktoru elmi dərəcəsinə (kitabxanaşünas olaraq) layiq görülən birinci alimdir. O, 1978-ci ildə professor adını almışdır. Məqalədə alimin Azərbaycanın elmi, pedaqoji və mədəni həyatında rolu təqdim olunur. Bu, alimin 90 illik ömrünün 70 ilini ölkə kitabxanaşünaslığına həsr etdiyini ifadə edir.

**Anahtar kelimeler:** Azərbaycanda kitabxanaşünaslıq, Professor Xələfov, Azərbaycanda kitabxana təhsili, Azərbaycan mədəniyyəti

**Gönderme Tarihi: 30/03/2022** **Kabul Tarihi:20/06/2022**

* *Dosent, Bakı Dövlət Universiteti, Fəlsəfə kafedrası, Bakı-Azərbaycan, pkazimi@mail.ru*
***Dosent, Bakı Dövlət Universiteti, Kitabxanaçılıq-İnformasiya Dekanı, Bakı-Azərbaycan alemdarbayramov@bsu.edu.az*
***Bu makaleyi şu şekilde kaynak gösterebilirsiniz:***
KAZIMI,P. ve BAYRAMOV, A., ''Professor A.A.Xələfovun Azərbaycanda Kitabxanaşünasliğin İnkişafinda Rolu (Professor A.A.Xələfovun 90 illik Yubileyinə)", *Akademik Tarih ve Düşünce Dergisi,* C. 9, S. 3, 2022, s.575-589.

# Role of Professor A.A. Khalafov in the Development of Library Education in Azerbaijan (To the 90th anniversary of Professor A.A. Khalafov)

**Parviz Kazimi*** **Alemdar Bayramov****
**ORCID: 0000-0001-5577-4773** **ORCID: 0000-0002-6599-5788**

**Abstract**

"The founder of library science in Azerbaijan", Abuzar Aly oglu Khalafov was born on December 25, 1931, in the village of Jil, located on the territory of Goych in Western Azerbaijan. From 1938-1945 he studied at a seven-year general education school, in 1945-1946 he worked on the collective farm named after Ali Bairamova. From 1950-1955 he studied at the library department of the Faculty of Philology of the Azerbaijan State University. Over the years, he worked as a teacher, senior lecturer, associate professor at the Library Faculty. In 1961 he defended his Ph.D. thesis on the topic "From the history of librarianship in Azerbaijan" (1920-1932)", and in 1975 he defended his doctoral dissertation on the topic "From the history of librarianship in Azerbaijan" (1933-1958). In 1978 he became a professor. These works, being significant and relevant, reflected the dynamics of the development of librarianship in Azerbaijan. He scientifically substantiated the goals and objectives of library activities, and carefully studied its pressing problems, and proposed his own ways to solve them. Abuzar Khalafov was the first to be awarded the degree of Doctor of Historical Sciences in library science. The article presents the role of a scientist in the scientific, pedagogical and cultural life of Azerbaijan. This means that the scientist devoted 70 years of his 90-year life to the librarianship of the country.

**Keywords:** Library science in Azerbaijan, Professor Khalafov, Library education in Azerbaijan, Culture of Azerbaijan.

**Received Date: 30/03/2022** **Accepted Date: 20/06/2022**

---

**Associate Professor, Baku State University Department of Philosophy, Baku- Azerbaijan, pkazimi@mail.ru*
***Associate Professor, Baku State University, Dean of Library and Information, Baku-Azerbaijan alemdarbayramov@bsu.edu.az*

***You can refer to this article as follows:***
KAZIMI,P. ve BAYRAMOV, A., ‘’Professor A.A.Xələfovun Azərbaycanda Kitabxanaşünasliğin İnkişafinda Rolu (Professor A.A.Xələfovun 90 illik Yubileyinə)", *Academic Journal of History and Idea,* Vol. 9, Issue 3, 2022, p.575-589.

**РОЛЬ ПРОФЕССОРА А.А. ХАЛАФОВА В РАЗВИТИИ БИБЛИОТЕЧНОЙ НАУКИ В АЗЕРБАЙДЖАНЕ**
**(К 90-летию профессора А.А. Халафова)**

**Парвиз Казими*** **Алемдар Байрамов ****
**ORCID: 0000-0001-5577-4773** **ORCID: 0000-0002-6599-5788**

**Резюме**

«Основоположник библиотековедческой мысли в Азербайджане», АбузарАлы оглуХалафов родился 25 декабря 1931 года в селении Джил, расположенном на территории Гейча Западного Азербайджана. В 1938-1945 годах обучался в семилетней общеобразовательной школе, в 1945-1946 году работал в колхозе им. Али Байрамова. В 1950-1955 годах обучался в библиотечном отделении Филологического факультета Азербайджанского Государственного Университета. В разные годы работал преподавателем, старшим преподавателем, доцентом на Библиотечном факультете. В 1961 году защитил кандидатскую диссертацию на тему «Из истории библиотечного дела в Азербайджане» (1920-1932 гг.)», а в 1975 году – докторскую диссертацию на тему «Из истории библиотечного дела в Азербайджане» (1933-1958 гг.). Эти работы, будучи важными и актуальными, отражали динамику развития библиотечного дела в Азербайджане. Он научно обосновал цели и задачи библиотечного дела, внимательно изучил его актуальные проблемы и для их предлагал своего рода пути их решения. АбузарХалафов первым из советских ученых был удостоен ученой степени доктора исторических наук (как библиотекарь) в области библиотечного дела. В 1978 году получил степень профессора. Эти работы, будучи значимыми и актуальными, отражали динамику развития библиотечного дела в Азербайджане. Он, научно обосновав цели и задачи библиотечной деятельности, тщательно изучил и ее насущные проблемы, и предложил свои пути их решения. АбузарХалафов стал первым, кто удостоился степени доктора исторических наук в области библиотековедения.В статье представлена роль ученого в научной, педагогической и культурной жизни Азербайджана. Этот ученый 70 лет своей 90-летней жизни посвятил библиотечному делу страны.

**Ключевые слова:** Библиотековедение в Азербайджане, профессор Халафов, библиотечное образование в Азербайджане, культура Азербайджана.

**Получено: 30/03/2022** **Принято: 20/06/2022**

---

**Доцент, Философский факультет Бакинского государственного университета, Баку-Азербайджан, pkazimi@mail.ru*

***Доцент, Бакинского государственного университета, декан библиотеки и информации, Баку-Азербайджан alemdarbayramov@bsu.edu.az*

***Ссылка на статью:***
KAZIMI,P. ve BAYRAMOV, A., ‘’Professor A.A.Xələfovun Azərbaycanda Kitabxanaşünasliğin İnkişafinda Rolu (Professor A.A.Xələfovun 90 illik Yubileyinə)”, *академическая история и мысль*, T.9, NO.3, 2022, C.575-589.

## Giriş

BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Əməkdar elm xadimi, Bakı Dövlət Universitetinin fəxri professoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, Bakı Dövlət Universiteti Kitabxanaçılıq-informasiya fakültəsinin və Kitabxanaşünaslıq kafedrasının yaradıcısı, "Şərəf və Şöhrət" ordenli, tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfov - Azərbaycan milli kitabxanaşünaslıq elminin banisidir.

Respublikamızda kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq elmlərinin və ali kitabxanaçılıq təhsilinin yaranması və formalaşması onun adı ilə bağlıdır. Kitabxanaçılıq-informasiya fakültəsinin bütün müəllim heyəti, eləcədə yüksək ixtisas təhsili almış Azərbaycanın kitabxanaşünas kadrları Abuzər Xələfovun yetirməsivə Abuzər Xələfov elmi məktəbinin təmsilçiləridir. 1975-ci ildə Moskva alimlərinin qarşısında çıxış edərək tarix elmləri doktoru adını sözün əsil mənasında "özündən razı" Moskva alimlərindən qopara167raq almışdı. Bununla da SSRİ məkanında öz ixtisası sahəsində ilk tarix elmləri doktoru olmuşdur.

Abuzər Xələfovdan bir il əvvəl, dünya şöhrətli tarixçi, türkoloq alim Lev Nikolayeviç Qumilyov 1974-cü ildə Moskvanın elmi şurasında "Biosfer və etnoqenez" mövzusunda doktorluq müdafiəsi zamanı şura üzvləri dissertasiyanı geri qaytararaq "bu hər nədirsə tarix deyil, gedin coğrafiya şurasında müdafiə edin" demişdilər.[1]Xələfova da "kitabxana işinin tarixi- tarix deyil" demişdilər, Necəki, bu sahənin tanınmış rus alimi professor Abramov da "SSRİ-də kitabxana işi adlı" fundamental tədqiqatın müəllifi olaraq pedaqoji elmlər doktoru elmi dərəcəsi aldı. Abuzər Xələfov Qumilyovun və Abramovun təslim olduqları bu vəziyyətlə barışmadı. Elmi şuranın üzvlərinə sübut etdi ki, kitabxana işinin tarixi mədəniyyət tarixi olaraq ümumi tarixin əhəmiyyətli tərkib hissəsidir. Buna onları inandırdı və sahəsinin ilk tarix elmləri doktoru oldu.

---

[1]Abuzər, Ali oğlu Xələfov, *Kitabxanaşünaslığın tarixi və metodologiyası* [Mətn] : dərslik /A. A. Xələfov elmi red., P. Kazımi, Bakı Devlet Universiteti, Bakı 2014, 551, [1] s.portr., 21 sm.

XX əsrin 60-70-ci illərində, sovet kitabxanaşünaslıq məktəbinin formalaşdığı bir dövrdə çox sayda tanınmış alimlər meydana gəldi. Sovet kitabxanaşünaslığının qabaqcıl alimlərindən Stolyarov, Zubov, Kluyev kimi dünya şöhrətli alimlərin apponnenti olmuş və onların elmi inkişafında yaxından iştirak etmişdi. Professor Kluyev Moskva Mədəniyyət Universitetindən hər dəfə professor Xələfovun ünvanına məkub göndərəndə ona "METR" deyə müraciət edirdi. Azərbaycan dilinə tərcüməsi olmayan bu latın termini xüsusi hallarda və böyük müəllimə müraciət forması kimi istifadə olunub. Hətta tanınmış rus alimləri professor Xələfova müəllim deyil –böyük müəllim deyə müraciət edirdilər. Professor Xələfov Kitabxanaşünaslığın elmi-nəzəri və təcrübi doktrinasını yaratdı və onu üç istiqamətdə - tarixi, sosioloji və texnoloji istiqamətlərdə işləyib özünün "Kitabxanaşünaslığa giriş" dərsliyinə daxil etdi. Kitabxanaların sosial institut olması fikri alimin bütün tədqiqatlarında ana xətt olaraq keçirdi. Xələfov kitabxanaların idarəedilməsi metodikasını işləyib hazırladı və ilk dəfə ona differensial yanaşma metodunu irəli sürdü. Professor Xələfovu dünya kitabxanaşünas alimlərindən Ranqanatan və Şira ilə müqayisə etmək olar. Lakin onlardan fərqli olaraq Xələfov öz elmi məktəbini tələbələri vasitəsi ilə davam etdirdi ki, bu da digər dünya alimlərində müşahidə olunmur.

Professor Xələfovun xoşbəxtliyi onda idi ki, fəaliyyəti illərində o, Yusif Məmmədəliyev, Əliheydər Qarayev, Şəfaət Mehdiyev, Faiq Bağırzadə, Məmməd Arif Dadaşzadə, Cəfər Xəndan, Feyzulla Qasımzadə, Məmməd Cəfər Cəfərov, Həmid Araslı, Əli Sultanlı, Mir Cəlal Paşayev, Məmmədhüseyn Təhmasib, Əliheydər Qəhrəmanov, Mehdixan Vəkilov, Abbas Zamanov, Pənah Xəlilov, Zülfəli İbrahimov kimi nəhəng və görkəmli alim-pedaqoqlar dəstəsi ilə əhatə olunmuşdu və onların təsiri ilə formalaşıb yetkinləşirdi.[2]

Onun elmi rəhbəri isə Azərbaycan EA-nın müxbir üzvü, tanınmış alim - Zülfəli İbrahimov olmuşdur.Belə nəhəng insanların əhatəsində yalnız nəhəng olmaq olardı və Abuzər müəllim məhz belə də oldu. Xələfov müəllimi və elmi rəhbəri Zülfəli İbrahimov haqqında daim xoş xatirələrini danışardı. Bu o alimdir ki, 1936-cı ildə Bakı Dövlət Universitetində ilk dəfə "Azərbaycan tarixi kafedrasını" açmış və ona rəhbərlik edən zaman hələ elmlər namizədi belə deyildi. Elmlər namizədliyini 1941-ci ildə müdafiə etmişdir. Abuzər Xələfov öz müəllimlərindən böyük bir epoxanın uğurlarını əldə etmiş və onu özündən sonrakı nəsillərə ötürmüşdü. Onun müəllimlərinin hər biri öz sahəsində iz qoymuş,

[2] *80 Yaşın Ucalığı, Azərbaycan Respublikasının görkəmli elm və mədəniyyət xadimləri prof. A.A.Xələfov haqqında*, Bakı Universiteti nəşriyyatı, Bakı 2011, s. 228.

Azərbaycanın tarixində və mədəniyyətində əhəmiyyətli rol oynamış alimlər idi. A.A.Xələfovun işgüzar və səmərəli elmi fəaliyyəti nəticəsində 1962-ci ildə BDU-nun Kitabxanaçılıq şöbəsi müstəqil fakültəyə çevrilir və o, yeni yaradılmış fakültənin ilk dekanı seçilərək 25 il bu vəzifədə çalışır. 1963-cü ildə, eyni zamanda Kitabxanaşünaslıq kafedrasının müdiri seçilən A.A.Xələfov həyatının son gününə kimi fasiləsiz olaraq həmin vəzifəni uğurla yerinə yetirirdi.

Kitabxanaçılıq fakültəsinin Kitabxanaşünaslıq kafedrasının bazasında 1968-ci ildə prof. A.A.Xələfov tərəfindən Biblioqrafiya şöbəsi, 1991-ci ildə - Kitabxana resursları və informasiya-axtarış sistemləri kafedrası yaradılmışdır. Kafedra Azərbaycanda kitabxanaşünaslıq və biblioqrafiya elminin tədrisinin təşkilində elmi mərkəz kimi respublikada kitabxana-biblioqrafiya elmləri üzrə fundamental tədqiqatların əsasının qoyulmasında və onların gələcək inkişaf istiqamətlərinin müəyyən edilməsində böyük rol oynamışdır. XX əsrin ikinci yarısında Azərbaycanda milli kitabxanaşünaslığın inkişafında, yüksək ixtisaslı kitabxanaçı kadrların hazırlanmasında əldə olunan mühüm nailiyyətlər prof. A.A.Xələfovun adı ilə bağlıdır.

Alim uzun illər "Kitabxana işinin təşkili və idarə olunması" laboratoriyasına və "Kitabxana işinin kompüterləşdirilməsi" elmi-tədqiqat laboratoriyasına rəhbərlik edib ki, onların da nailiyyətləri ayrıca qeyd olunmalıdır. 2011-ci ilin dekabr ayında Azərbaycan Respublikasında görkəmli kitabxanaçı, pedaqoq, ictimai xadim, müasir ictimai-siyasi, mədəni həyatımızda uğurların sevincini yaşamaq imkanı qazanmış görkəmli ziyalı Abuzər Alı oğlu Xələfovun 80 illik yubileyi geniş şəkildə qeyd olundu. Yubileyi çərçivəsində çap olunmuş, müasir həyatın müxtəlif problemlərinə həsr olunmuş və alimin son iki onillikdə ictimai-siyasi, mədəni, pedaqoji baxışlarını özündə əks etdirən məqalələr toplusu müdrik alim və təcrübəli müəllimin vətəndaş mövqeyini, milli iradəsini əks etdirirdi.

Topluda yer alan 150-dən çox məqalə alimin ictimai-mədəni həyatının bütün sahələrinə dair baxış və düşüncələrini əks etdirir. Lakin bu, A.A.Xələfovun şəxsiyyətinin tam portreti deyil, onun kiçik bir fraqmentidir. Bakı Dövlət Universitetinin nəşriyyatında yubileyə həsr olunmuş A.A.Xələfovun dövlət müstəqilliyi illərində çap olunmuş əsərlərinin biblioqrafiyasını özündə əks etdirən 100-ə yaxın kitab, 1000-dən çox müxtəlif ölçülü elmi məqalələr göstərir ki, alim cəmiyyətin sosial-mədəni həyatında çoxlu və ciddi elmi-nəzəri və elmi-praktik əsərlərin müəllifidir.

Bu elmi irs professor A.A.Xələfovun yaratdığı Azərbaycan kitabxanaçılıq məktəbinin təməl daşıdır. Artıq ötən əsrin 70-ci illərinin sonlarında, bu sətirlərin müəllifi hələ tələbə ikən A.A.Xələfov məktəbinin yetirmələri sovet elmində öz sanballı sözünü demiş görkəmli alimlər idi. 1950-ci illərin

sonu, 1960-cı illərin əvvəllərində tələbələrin harada Kitabxanaçılıq təhsili alması məsələsi sovet təhsil sistemində - universitetlərdə, pedaqoji institutlarda, yoxsa mədəniyyət institutlarında geniş müzakirə olunurdu. Hər kəsin səs vermək hüququ olmadığı dövr idi. Rusiya Federasiyasında bu ixtisasın tədrisi prosesi mədəniyyət institutlarında həyata keçirilirdi.

Prof. A.Xələfov bütün səviyyələrdə sübut etdi ki, bu təhsil universitetdə verilməlidir, çünki bu sahə universal sahədir. Əgər kitabxanaçılıq tarixi milli və ümumbəşəri mədəniyyət tarixinin tərkib hissəsidirsə, o zaman kitabxananın real məkanda göstərdiyi kitabxana xidməti kifayət qədər çoxşaxəli, universal xarakter daşıyır, geniş spektrli hazırlıq tələb edir və gələcəyə hesablanıb. Sovet Azərbaycanında kitabxana mədəniyyəti tarixini öyrənən A.Xələfov Moskva alimləri qarşısında çıxış edərək, dissertasiya müdafiə edərək sovet dövründə bu sahədə ilk tarix elmləri doktoru olmuşdur. O, müxtəlif millətlərdən olan bir çox alimlərin - rusların, özbəklərin və s.-nin elmi rəhbəri və müəllimi olub.Professor A.Xələfov sovet məkanında ilk dəfə sübut etdi ki, kitab və kitabxanaçılıq tarixi mədəniyyət tarixinin tərkib hissəsidir və bu sahədə tarixi araşdırmalar ümumi tarixi mənalı və etibarlı edir.

Professor A.Xələfov novator alimdir. Son iyirmi beş ildə dünyada informasiya kommunikasiyalarında baş verən transformasiya, yeni informasiya texnologiyaları kitabxanaşünaslıq təcrübəsində baş verən keyfiyyət dəyişikliklərini elmi əsaslarla əsaslandıran, yeni informasiya texnologiyalarının kitabxana konsepsiyasını yaradan alimin yeni tədqiqatlarında öz əksini tapmışdır. Çətin tarixi dövrdən sağ çıxmış, təkamül - elm, bilik və mənəviyyat mənbəyi kimi insan ruhunun bütün sərvətlərini toplayıb, onları qoruyub saxlayaraq, nəsildən-nəslə ötürərək kitabxanaşünaslığın elmi nəzəriyyəsinin formalaşması və inkişafı təcrübəsi. nəsildən-nəslə keçərək bəşəriyyətin əvəzsiz abidəsinə çevrilmişdir.

XX əsrin sonlarında kitabxanaşünaslıqda “sağ” və “sol” istiqamətlər (baxışlar) meydana çıxdı. Birinci istiqaməti ənənəvi kitabxanaçılığın mühafizəkar müdafiəçiləri, ikinci istiqaməti müasir mərhələdə ənənəvi kitabxanaçılığın əhəmiyyətinə məhəl qoymayan informatika təmsil edirdi. Professor A.Xələfov 2012-ci ildə BDU-da çap olunmuş “Müasir kitabxanaşünaslığın problemləri” elmi monoqrafiyasında yazır: “Ənənəvi kitabxanaların strukturunda baş verən dəyişikliklər, avtomatlaşdırılmış sistemlər, proqram təminatı,kitabxanaların kompüterləşdirilməsikitabxanaların sosial funksiyalarında heç bir köklü dəyişiklik etmədən, informatika ilə güclü inteqrasiyasına səbəb olmuşdur. Beləliklə, elektron kitabxanaşünaslığın tərəfdarları özləri də bilmədən ənənəvi

kitabxanaşünaslığın daxili bölməsinə çevrildilər. Aydındır ki, informasiya cəmiyyəti kitabxanaların məqsəd və vəzifələrində, strukturunda, kitabxanaşünaslıq nəzəriyyəsində, ideyalarda, münasibətlərdə və konsepsiyalarda inqilabi dəyişikliklər tələb edir. İnformasiya cəmiyyəti şəraitində kitabxanaların ümumi kompüterləşdirilməsini, avtomatlaşdırılmasını və mexanikləşdirilməsini, kitabxana fondlarının, elektron nəşrlərin, multimedia materiallarının elektron informasiya vasitələrinin vahid sisteminə daxil edilməsini, informasiya-kommunikasiya texnologiyalarının Azərbaycanda tətbiqini həyata keçirmək mümkün olur. İnternetin köməyi ilə oxucuya xidmət göstərilməsi elektron kitabxanaşünaslığın (kitabxana fəaliyyətində elektron vasitələri öyrənən elmi fənn kimi) meydana gəlməsini zəruri etdi.

Alim öz tədqiqatında ənənəvi kitabxana işi, eləcə də elektron kitabxanaşünaslığın yaranması, müasir mərhələdə onun inkişafı və cəmiyyətdəki rolu ilə bağlı mövqeyini geniş şəkildə ortaya qoyur. O, müasir informasiya proseslərinin təsiri nəticəsində ənənəvi kitabxanaşünaslığın strukturunun dəyişdirilməsi, eləcə də elektron kitabxanaşünaslığın elektron determinantla kitabxana funksiyalarının birgə öyrənilməsi obyekti olmasının yeddi parametrini müəyyən etmişdir.

Məlum olduğu kimi, müasir hüquqi sənədlərdə, beynəlxalq bəyannamələrdə, o cümlədən “2008-2013-cü illərdə Azərbaycanda kitabxana işinin təkmilləşdirilməsinə dair Dövlət Proqramı”nda dünya sivilizasiyasının beş min illik kitabxana mədəniyyəti ideyası, onun sistemli şəkildə yenilənməsi və təkmilləşdirilməsi istiqamətləri müəyyən edilmişdir. Beləliklə, elektron kitabxanaşünaslığı ayrıca bir fənn və ya fəaliyyət sahəsi kimi qəbul etmək düzgün deyil, o, ənənəvi kitabxanaşünaslığın tərkib hissəsi olmaqla, tarixən elmi nəzəriyyə ilə formalaşmış və öz metodologiyasına malikdir.

Görkəmli dünya şöhrətli alim, əməkdar elm xadimi, tarix elmləri doktoru, professor, Bakı Dövlət Universitetinin fəxri professoru Abuzər Xələfovun Azərbaycan elmi, mədəniyyəti və təhsili, respublikada kitabxanaçılığın inkişafı və çiçəklənməsi qarşısındakı xidmətləri əvəzsizdir. Respublikada kitabxanaçılıq təhsili üzrə ali məktəbin yaradılması, kitabxanaşünaslıq, biblioqrafiya və kitabşünaslıq üzrə yüksək ixtisaslı elmi-pedaqoji kadrların hazırlanması alimin 50 ildən artıq səmərəli və çoxşaxəli fəaliyyətinin parlaq nəticəsidir.

Abuzər Xələfovun fəaliyyəti bir fakültə çərçivəsində məhdudlaşmırdı: o, bütövlükdə universitetin tədris prosesinin müasir konsepsiyasının formalaşdırılmasında, ali təhsilin funksiyalarının ətraflı işlənib hazırlanmasında və onun optimallaşdırılmasında fəal iştirak etmişdir. Təsadüfi deyil ki, hələ 1969-cu ildə elmi kadrların hazırlanması sahəsində xidmətlərinə görə A.Xələfova “Əməkdar mədəniyyət işçisi” fəxri adı verilmişdir.

XX əsrin 60-cı illərindən başlayaraq respublikada kitabxanaşünaslıq və biblioqrafiya sahəsində müdafiə olunan bütün namizədlik və doktorluq dissertasiyalarının müəllifləri əsasən A.Xələfovun elmi məktəbinin üzvləridir. Azərbaycanda kitabxanaçılıq tarixinin ilk tədqiqatçısı, birdən çox peşəkar kitabxanaçı-biblioqraf və kitabşünas nəsli yetişdirmiş, kitabxanaçılıq fakültəsinin yaradıcısı A.Xələfovun adı ölkəmizin hüdudlarından çox-çox uzaqlarda da tanınır. Azərbaycanın görkəmli elm və mədəniyyət xadiminin xidmətləri beynəlxalq mükafatlara da layiq görülüb. Beləliklə, o, Amerika Bioqrafik İnstitutu tərəfindən 2001-ci ildə nəşr olunan "Görkəmli Şəxsiyyətlər və Liderlərin Beynəlxalq Kitabxanası"nın XI nəşri üçün namizəd kimi seçilmiş, fəxri fərman və qızıl medalla təltif edilmişdir. Bu fenomen şəxsiyyətin yarım əsrdən artıq yorulmaz fəaliyyəti bütünlüklə Azərbaycan xalqının milli-mədəni dəyərlərinin qorunub saxlanmasına yönəlmişdir.

A.Xələfov 300-dən çox elmi məqalənin, 10 monoqrafiyanın, 30-dan çox kitabın - dərslik və dərs vəsaitinin müəllifi, 20-dən çox elmlər namizədi və elmlər doktorunun elmi rəhbəri və məsləhətçisidir. Müstəqillik illərində A.Xələfovun rəhbərliyi ilə ali təhsil müəssisələrinin bakalavriat səviyyəsi üçün ilk dəfə olaraq bir sıra dərsliklər, dərs vəsaitləri, monoqrafiyalar, proqramlar, metodiki tövsiyə və göstərişlər hazırlanaraq nəşr edilmişdir. Bunlardan - 3 cilddə "Kitabxanaşünaslığa giriş", 3 cilddə "Kitabxana xidməti", "Kitabxana işinin təşkili və idarə edilməsi", "Kitabxanaların kompüterləşdirilməsinin əsasları", "Azərbaycanda kitabxanaçılıq tarixi" 3 cildlik, "Dünya kitabxanalarının tarixi" 2 cilddə, "Kitabxanaların elmi-metodiki təminatı", "Kitabxana informatikası", "Kitabxana-informasiya fəaliyyətinin iqtisadiyyatı" və s., eyni zamanda magistratura üçün "Kitabxanaşünaslığın müasir problemləri", "Dünya Milli Kitabxanaları" və s. adda nəşrlər işlənib hazırlanmışdır.[3]

Professor A.Xələfov 2004-2010-cu illərdə nəşr olunmuş "Azərbaycanda kitabxanaçılıq tarixi" adlı üçcildlik fundamental əsərində Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq "kitabxana işinin inkişaf mərhələləri" və "kitabçılıq işinin inkişaf mərhələləri" kimi anlayışları hərtərəfli təhlil etmişdir. Azərbaycanda qədim dövrlərdən XXI əsrin əvvəllərinə qədər kitabxanaların, yazı və kitabxana mədəniyyətinin, bütövlükdə Azərbaycan mədəniyyətinin tərkib hissəsi kimi yaranması, şəxsi, ictimai və mədrəsə kitabxanalarının cəmiyyətin mədəni-mənəvi inkişafındakı rolunu müəyyən etmişdir.

[3] Müdriklik və alimlik zirvəsində [Mətn]: Abuzər Ali oğlu Xələfov: Anadan olmasının 75, elmi-pedaqoji fəaliyyətinin 50 illiyinə həsredilir, Tərtibedənlər. R. Kazımov, K. Aslan; Red. K.Aslan, Bakı Devlet Universiteti, Bakı 2006, s.160.

Abuzər Xələfovun Azərbaycan mədəniyyəti qarşısındakı xidmətləri sırasında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin kitabxanaşünaslığın inkişafında böyük rolunu müəyyənləşdirməsini xüsusi qeyd etmək lazımdır. Kitabxanaçılıq sahəsinin çiçəklənməsində Heydər Əliyevin rolu “Heydər Əliyev və Azərbaycanda kitabxana işi” (2006), “Azərbaycanda kitabxana işinə dair Heydər Əliyev doktrinası uğurla davam edir” (2009) kimi əsərlərdə öz əksini tapmışdır.

## Netice

2020-ci ilin aprel ayında məşhur alim vəfat etdi. Lakin alim ölümündən bir neçə ay əvvələ qədər fəal pedaqoji fəaliyyətini davam etdirmiş, tələbələri ilə hər görüşü yaddaqalan olmuşdur. O, sovet dövrünün alimlərindən dərin hörmət və ehtiramla danışır, onların əsərlərini tərcümə edərək dərsliklərə daxil edirdi. Bu gün bakalavr pilləsində təhsil alan tələbələr görkəmli alimlər K. İ. Abramov, O. İ. Talalakina, O. P. Korşunov, Yu. N. Stolyarov haqqında məlumatları yalnız Xələfovun dərsliklərindən alırlar.

O, SSRİ-də kitabxanaçılıq tarixi haqqında professor Abramovla apardığı elmi mübahisələrdən, "kitabxana mədəniyyətinin balanslaşdırılmış mənzərəsinin yaradılmasının yanlışlığından", sovet "elm nəzəriyyəsi"nin problemlərindən yazır. Məhz bu əsərlərdən indiki tələbələr böyük "elmi məktəb"in tarixini öyrənirlər. Ömrünün son günlərinə qədər professor Rusiyada akademik müzakirələr haqqında oxuyur, professor Klyuev, Y. L. Şrayberq və Stolyarovun yeni əsərlərini izləyirdi. Professor Xələfov etiraf etdi ki, bir alim kimi bəxti gətirib, çünki o, çox ciddi alimlər mühitində olub və onun inkişafında bu alimlərin rolu böyükdür. 70 ildir ki, Azərbaycanın ali məktəblərində professor A.A.Xələfovun kitabları əsasında kitabxanaçılığın elmi-nəzəri əsasları öyrənilir. Onun elmi məktəbinin nümayəndələrinin sayı ildən-ilə artır, onun zəngin elmi irsi daha da dərindən öyrənilir. Bu o deməkdir ki, alim öz həyatını davam etdirir, mənəvi dünyası ilə bizi sevindirir.

## References

80 Yaşın Ucalığı, Azərbaycan Respublikasının görkəmli elm və mədəniyyət xadimləri prof. A.A.Xələfov haqqında, Bakı Universiteti nəşriyyatı, Bakı 2011.

XƏLƏFOV, A. Ali oğlu, *Kitabxanaşünaslığın tarixi və metodologiyası* [Mətn] : dərslik /A. A. Xələfov elmi red., P. Kazımi, Bakı Devlet Universiteti, Bakı 2014, 551, [1] s. portr., 21 sm.

Müdriklik və alimlik zirvəsində [Mətn]: Abuzər Ali oğlu Xələfov: Anadan olmasının 75, elmi-pedaqoji fəaliyyətinin 50 illiyinə həsredilir /Tərtibedənlər. R. Kazımov, K. Aslan; Red. K.Aslan, Bakı Devlet Universiteti, Bakı 2006.

**Ek:**

**Alimin bizə miras qoydugu qiymətli əsərləri:**

**Heydar Aliev:** Bibliographic reference book/ Editor and preface Xalafov A.A. - B.: Baku University Press, 2003. -434p, together with Sadigova S.A. (in Azeri)

**Heydar Aliev:** Bibliographic reference book/ Editor and preface Xalafov A.A. - B.: Baku University Press, 2003. -446p, together with Sadigova S.A. (in Russian )

**Heydar Aliev:** Bibliographic reference book/ Editor and preface Xalafov A.A. - B.: Baku University Press, 2003. -455p, together with Sadigova S.A. (in English)

**Xalafov A.A.** The introduction to Library science: Textbooks: (3 parts) P.3. – B.: Baku University Press, 2003. -314p. (in Azeri)

**Xalafov A.A**. The history of library work in Azerbaijan: Textbooks: (2 parts) P.1. (From oldest ages to the 20th century). – B.: Baku University Press, 2004. -328p. (in Azeri)

**Xalafov A.A.** Heydar Aliev and Azerbaijan library work. – B.: Azernashr, 2006. -312p. (in Azeri)

**Xalafov A.A.** The main development directions of the library work in Azerbaijan at the beginning of the 21st century (conculsions, suggestions and information). - B., 2006. -106p. (in Azeri)

**Xalafov A.A.** Computer basis of libraries (Textbooks). – B.: Baku University Press, 2006. -205p. Together with Gurbanov A. (in Azeri)

**Xalafov A.A**. The history of library work in Azerbaijan: Textbooks: (2 parts) P.2.: The history of library work at the first half of the 20th century in Azerbaijan – B.: Baku University Press, 2007. - 552p. (in Azeri)

**Xalafov A.A.** Some problems of the library fund formation. – B.: AUL, 1958. -64p. (in Azeri)

**Xalafov A.A.** The history of library work in Azerbaijan (1870-1920). – AUL, 1960. -95p. (in Azeri) )

**Xalafov A.A.** The history of library work in Azerbaijan USSR (1920-1932). –AUL, 1960. -187p. (in Azeri) )

**Xalafov A.A.** The history of library work in Azerbaijan USSR (1920-1932). – Essay. (in Russian) - B., 1961. – 17p)

**Xalafov A.A.** The history of library work in Azerbaijan (1933-1958). - B.: Azernashr, 1974. -244p. )

**Xalafov A.A.** Lenin V.I. and library work. - Azernashr, 1974. -104p. )

**Xalafov A.A.** The history of library work in Azerbaijan (1933-1958). –Essay. (in Russian) – B., 1974. – 138p. )

**Xalafov A.A.** The Library science faculty. (In Russian). –B., 1981. -32p. together with Kazimov R.A. )

**Xalafov A.A.** The history of library work in Azerbaijan (from old ages to 18th century). – B.: Bilik, 1986. – 51p. (in Azeri) )

**Xalafov A.A.** The reference book of librarian. –B.: Azernashr, 1986. - 286p. Together with Kazimov R. and Badalov E. (in Azeri) )

**Xalafov A.A.** The development of the librarianship education in Azerbaijan. – B.: Maarif, 1987. -132p. (in Azeri) )

**Xalafov A.A.** The introduction of the history course of the library work. –B.: BUP, 1996. -36p. (in Azeri) )

**Xalafov A.A.** Library science (the library catalogues): the textbook for the students educated "Library science" profession. – b.: BUP, 1996. - 212p. Together with Guliev T., Gasanov M., Aliev A. and Mustafaeva S. (in Azeri) )

**Xalafov A.A.** The introduction to Library science: Textbooks. – B.: BUP, 1996. - 60p. (in Azeri) )

**Xalafov A.A.** The high librarianship education in Azerbaijan. –B.: BUP, 1998. - 130p. (in Azeri) )

**Xalafov A.A.** The Scientific Technology Library of Republic (1930-2000): Short historical sketch devoted to the 70 anniversary of the library. –B.: BUP, 2001. – 38p. (in Azeri) )

**Xalafov A.A**. The history of library work in Azerbaijan (short review). –B.: BUP, 2001. -52p. (in Azeri) )

**Xalafov A.A.** The introduction to Library science: Textbooks: (3 parts), P.1-2. –B.: BUP, 2001. -400p. (in Azeri) )

**Xalafov A.A.** The introduction of the history course of the library work. –B.: BUP, 2002.-38p. (in Azeri)